**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN RESPUBLİKASININ REGİONLARINDA İNVESTİSİYA MÜHİTİNİN YAXŞILAŞDIRILMASI İSTİQAMƏTLƏRİ

İxtisas: 5308.01 – Ümumi iqtisadiyyat

Elm sahəsi: 53 - iqtisad elmləri

İddiaçı: **Behbidalı Valeh oğlu Novruzlu**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın
**A V T O R E F E R A T I**

**Bakı - 2024**

Dissertasiya işi Gəncə Dövlət Universitetində yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad elmləri doktoru, professor
**Zahid Fərrux oğlu Məmmədov**

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, professor
**Xatirə Mail qızı Hüseynova**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Nazim Özbəy oğlu Hacıyev**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Eldar Əli oğlu Quliyev**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət İqtisad Universiteti nəzdində fəaliyyət göstərən ED 2.10 Dissertasiya şurası

**Dissertasiya şurasının sədri:** iqtisad elmlərui doktoru, professor
**Yaşar Atakişi oğlu Kəlbiyev**

**Dissertasiya şurasının elmi katibi:** iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Suqra İnqilab qızı Hümbətova**

**Elmi seminarın sədri:** iqtisad elmləri doktoru, professor
**Rəsul Ənvər oğlu Babayev**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi:** Avropa və Asiyanın qovşağında yerləşən Azərbaycan qlobal iqtisadiyyatın dinamik oyunçusu kimi formalaşmağa başlamışdır. Zəngin mədəni irsə, böyük enerji resurslarına, iqtisadiyyatın şaxələndirilməsi istiqamətində göstərdiyi səylərə və strateji geosiyasi mövqeyə malik olan Azərbaycan iqtisadi artım və inkişaf üçün böyük potensiala malikdir. Son illər dövlət dayanıqlı inkişafın təşviqində investisiyaların əsas rolunu müəyyən edərək yerli və xarici investisiyaların cəlb edilməsi üçün mühüm addımlar atıb. Bununla belə, bu səylərə baxmayaraq, ölkənin tam iqtisadi potensialından yararlana bilmək üçün investisiya mühitinin, xüsusən də regional səviyyədə daha da yaxşılaşdırılmasına ehtiyac vardır.

Azərbaycan Respublikası iqtisadiyyatına investisiyaları cəlb etmək üçün "açıq qapı" və "bir pəncərə" siyasətlərini qəbul edib. Hazırda hökumət iqtisadi islahatların aparılması, biznes mühitinin yaxşılaşdırılması və qeyri-neft sənayesində artımın təşviqi istiqamətində davamlı addımlar atmaqdadır. Azərbaycanda investisiya mühitinin inkişafı baxımından investorların hüquq və üstünlüklərini qorunur, mülkiyyət hüquqlarını təmin edilir, yerli və xarici iş adamları üçün bərabər şərait yaradılır. Ölkəmizdə investorların hüquqların qorunması və onların fəaliyyətinin təkmilləşdirilməsi isitqamətləri üzrə aşağıda adları qeyd olunan qanunlar və digər normativ hüquqi sənədlər: Apellyasiya Şuralarının yaradılması, "Xarici investisiyaların qorunması haqqında", "İnvestisiya fəaliyyəti haqqında" və "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" əsasında tənzimlənir.

Müxtəlif iqtisadi və coğrafi landşaftlardan ibarət olan Azərbaycanın regionları ölkənin ümumi iqtisadi yüksəlişi və rifahının ayrılmaz tərkib hissəsidir. Ölkəmizdə dayanıqlı iqtisadi artımın və inkişafın təmin edilməsi baxımından daxili və xarici investisiya qoyuluşlarının cəlbedilməsi danılmaz faktdır. İnvestisiya qoyuluşlarının ölkəyə çəkilməsi, regional rəqabətdə irəli çıxa bilməyimiz üçün də düzgün investisiya mühitinin qurulmasına ehtiyac vardır. Bu baxımdan investisiya mühitinin dayanıqlılığı və davamlılığı üçün də müxtəlif siyasətlərin, tədbirlərin və fəaliyyətlərin işlənilməsi lazımdır. Nəzərə

alsaq ki, Bakı və ətraf bölgələrində əsrin müqaviləsindən sonra böyük investisiya axınını müşahidə edilmişdir ancaq regionlarda bu cür oxşar iqtisadi inkişaf və investisiya qoyuluşu baş verməmişdir bu zaman, regionlarda investisiya mühitinin yaxşılaşdırılmasının ortaya çıxmasının şahidi olarıq. 2015-2022-ci illər arasında əsas vəsaitlərə kapital qoyuluşu ortalama Bakıda 10,755 mlrd. manat, regionlarda isə 6,418 mlrd. manat olmuşdur. Bu səbəbdən də regionlarda ümumi investisiya mühitinin inkişafına təsir edən faktorların: infrastruktur, texnoloji inkişaf, tənzimləyici çərçivələr, vergi və maliyyə siyasəti, siyasi stabillik və d. araşdırılmasına gərək vardır. İnvestorların qarşılaşdıqları əsas problemlərin müəyyən edilərək həll edilməsi yolu ilə regional investisiya çatışmazlıqlarının aradan qaldırılması istiqamətində ciddi işlərin görülməsinə ehtiyac vardır.

İnvestisiya proqramının uğurla həyata keçirilməsi ilk növbədə qabaqcıl texnika və texnologiyanın tətbiqində, istehsalın həcmində, görülən işlərin və xidmətlərin dəyərində özünü göstərir. Buna görə də, investisiyaların maliyyələşdirilməsi mənbələrini dəqiq müəyyən etmək və bu məqsədlərə çatmaq üçün onları sistemli şəkildə təhlil etmək və qiymətləndirmək çox vacibdir.

İnvestisiya mühiti həm daxili, həm də xarici müxtəlif amillərin təsiri altında olan mürəkkəb və dinamik bir sistemdir. Bu amillər aktivlərin fəaliyyətinə, ümumi investisiya mühitinə təsir göstərir və onların başa düşülməsi investorlara görə investisiya məqsədlərinə nail olmaq üçün vacibdir. İnvestorlar investisiya qərarları ilə bağlı qeyri-müəyyənliyi və riski azaltmaq üçün çox vaxt siyasi mühitdə sabitlik və proqnozlaşdırıla bilənliyə can atırlar.

Regionun özünəməxsus iqtisadi siyasəti və şərtləri də investisiya mühitinə müsbət və mənfi təsir göstərə bilər. Beləliklə, şəffaflığı, etimadı və sabitliyi təşviq edən investisiya mühiti kapitalın cəlb edilməsi və iqtisadi artımın dəstəklənməsi üçün həyati əhəmiyyət kəsb edir. İnvestisiya üçün stimullar təmin edən regionlar investorları cəlb etmək və biznesin böyüməsini stimullaşdırmaq üçün daha böyük imkanlara malikdir. Aşağı vergi dərəcələri, sadələşdirilmiş tənzimləmə prosedurları və investisiya subsidiyaları kimi tədbirlər regionun sahibkarları və investorları üçün cəlbediciliyini artırır. Bundan əlavə, güclü, şaxələndirilmiş iqtisadiyyatı, ixtisaslı işçi qüvvəsi və müasir

infrastrukturu ilə fərqlənən regionlar daha da əlverişli investisiya mühitinə sahib ola bilər. Güclü sosial birlik, minimal korrupsiya ilə səciyyələnən cəmiyyət bizneslər, investorlar və hökumət arasında qarşılıqlı əməkdaşlığı və etimadı hər zaman inkişaf etdirir. Bu etimad nəticəsində sabit investisiya mühiti formalaşır ki, bu da öz növbəsində həmin regionda iqtisadi artımı təşviq edir.

İnvestisiya mühiti anlayışının geniş məna kəsb etməsi baxımından onun aktuallığı, mahiyyəti, ölkəyə göstərə biləcəyi təsirləri və digər məsələləri ilə bağlı dünya alimləri və yerli tədqiqatçıları tərəfindən xeyli əsərlər həsr edilmişdir. Dünya alimləri tərəfindən, əsasən, investisiya mühitinin inkişafına təsir edən faktorların aradan qaldırılması yolları, birbaşa xarici investisiyaların cəlbedilməsi istiqamətləri, regionların inkişafı və aralarındakı bərabərsizliklərin aradan qaldırılması məsələləri, həmçinin vergi və digər güzəştlərin investisiyalara təsirinin öyrənilməsi baxımından Keyns C., Laffer A., Domar E., Sprague J., Denisia V., Cohen D., Adelman I., Hulten C., Reside E.R., Klemm A., Rodrik D., Buckley P.J., Dunning J. H., Karataş A., Erdoğan A., Yavan N. yanaşmaları xüsusi şəkildə vurğulanmalıdır. Bu tədqiqatlar ilə elmə dərin töhfələr vermişdirlər.

Bu sahə üzrə Azərbaycanın görkəmli tədqiqatçıları və mütəfəkkirləri tərəfindən bir çox elmi əsərlər yazılmışdır. Əsasən yerli alimlərimiz arasından Z.Ə.Səmədzadə, V.M.Şirəliyev, Q.R.Qeybullayev, Z.F.Məmmədov, R.A.Quliyev, R.P.Sultanova, Ə.X.Nuriyev, T.H.Hüseynov, M.Ə.Əliyev, A.H.Ağarzayev, B.S.Əhmədov., Ə.H.Məmmədov, İ.Z.Seyfullayev, Ə.Q.Əlirzayev və digərlərinin tədqiqatlarında investisiya qoyuluşlarının artırılması yollarının mahiyyətinə elmi əsaslandırılmış yanaşmalar irəli sürülür, investisiya cəlbediciliyinin artırılması problemləri üzrə araşdırmalar əsas diqqət mərkəzində saxlanılır. Ümumilikdə, investisiya mühitinə təsiri və bu baxımdan onların formalaşması siyasətinə birbaşa bizim tədqiqatımızda baxılmışdır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti Azərbaycan Respublikasında, o cümlədən onun regionlarında investisiya mühiti müəyyən edilmişdir. Bura Azərbaycanda, xüsusilə də onun regionlarında investisiya mühitinin mövcud durumu, həyata keçirilən işlər, həmçinin bütövlükdə ölkənin və onun ayrı-ayrı

regionlarının əlverişli investisiya mühitinin formalaşmasında iştirak edən dövlət və özəl sektorların qarşılıqlı əlaqəsini dəstəkləyən siyasət çərçivəsi kimi müxtəlif aspektlər daxildir.

Tədqiqatın predmeti Azərbaycan Respublikasında regionların inkişafı və investisiya mühiti arasında əlaqədir. Bu, investisiya mühitinin ölkədə regionların inkişafına, o cümlədən investisiya qoyuluşlarının artırılması yolları, regionların iqtisadi inkişafı və tətbiq edilən təşviqlərin xarakterindəki dəyişikliklər kimi müxtəlif amilləri öyrənməyi əhatə edir. Tədqiqat həmçinin Azərbaycanda regionların inkişafı və investisiya mühiti arasındakı əlaqədən irəli gələn çatışmazlıqları və mövcud perspektivləri araşdıra bilər.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin əsas məqsədi Azərbaycan Respublikasının regionlarında investisiya mühitinin yaxşılaşdırılması istiqamətinə dair təhlillər aparmaq və müvafiq tövsiyələr verməkdir.

Tədqiqatın əsas məqsədinə çatmaq üçün aşağıdakı vəzifələrin reallaşdırılması nəzərdə tutulmuşdur:

- İnvestisiyanın nəzəri-metodoloji əsaslarını tədqiq etmək;
- İnvestisiya mühitinin mahiyyətini, onun obyektini, funksiyalarını, o cümlədən, prinsiplərini təhlil etmək;
- Regionlarda əlverişli investisiya mühitinin yaxşılaşdırılması istiqamətinə dair təhlillər aparmaq, effektiv strategiyalar və həyata keçiriləcək siyasətlər üçün tövsiyələr vermək;
- Yerli və xarici sərmayələri cəlb, regional artımı təşviq və davamlı inkişafa kömək edə biləcək strateji istiqamətləri dəqiqləşdirmək;
- İnvestisiya mühitinin kompleks təhlilini həyata keçirərək bu sahədəki mövcud çatışmazlıqları tədqiq etmək və aradan qaldırılması yollarını müəyyən etmək;
- Makroiqtisadi amillərin ölkənin investisiya mühitinə təsirinin qiymətləndirilməsini əsaslandırmaq;
- Aşağı vergi dərəcələri, sadələşdirilmiş tənzimləmə prosedurları və investisiya subsidiyaları kimi tədbirlər planlarının təhlilini aparmaq;
- İnfrastruktur, tənzimləyici islahatlar, investisiya təşviqləri, maliyyələşdirmə variantları, insan kapitalının inkişafı, regional marketinq və idarəetmə kimi müxtəlif amilləri araşdıraraq, siyasətçilər,

investorlar və investisiya mənzərəsinin formalaşmasında iştirak edən maraqlı tərəflər üçün fikirlər və tövsiyələr təqdim etmək.

Nəticə etibarı ilə bu tövsiyələrin uğurla həyata keçirilməsi Azərbaycan Respublikasında iqtisadi artımı stimullaşdıra, regionlar arasında inkişaf fərqini aradan qaldıra, məşğulluq imkanları yarada və əhalinin ümumi həyat səviyyəsini yüksəldə bilər.

**Tədqiqat metodları.** Tədqiqat işinin nəzəri-metodoloji əsaslarını yerli və xarici iqtisadçı alimlərin, akademik təhlil mərkəzlərinin, beynəlxalq iqtisadi təşkilatların (Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı və s.) tədqiqat və hesabatları, dövlət proqramları, normativ-hüquqi aktlar, strateji yol xəritələri, Gələcəyə baxış Milli konsepsiyası, İqtisadiyyat nazirliyinin, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin, Mərkəzi Bankın hesabatlarından əldə edilən materiallar və s. təşkil edir. Tədqiqat işində sistemli yanaşma, müqayisə, iqtisadi-riyazi modelləşmə, iqtisadi-statistik təhlil, sintez, ümumiləşdirmə, induksiya, deduksiya və qrafik metodlarından istifadə edilmişdir. Həmçinin, verilənlər arasında əlaqənin müəyyən edilməsi və kəmiyyətcə qiymətləndirilməsi üçün reqressiya modeli tətbiq edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

1. İnvestisiya mühitinin formalaşmasına elmi-nəzəri baxışların və strukturlarının inkişaf xüsusiyyətlərinin komplektləşdirilməsi;
2. İnvestisiya mühiti potensialının makroiqtisadi aspektlərinin tədqiq edilməsi;
3. İnvestisiya mühiti ilə iqtisadi artım arasında əlaqənin əsaslandırılması;
4. Regionun investisiya mühitinə adekvat investisiya layihələrin hazırlanması və qiymətləndirilməsinə metodiki yanaşma
5. Azərbaycana xarici investisiyaların cəlb olunmasının mövcud vəziyyətinin kompleks təhlil edilməsi;
6. Regionlarda investisiya mühiti imkanlarının qiymətləndirilməsi;
7. İnvestisiya mühiti və onun investisiya potensialından istifadəyə təsiri mexanizmlərinin artırılması istiqamətlərinin müəyyənləşdirilməsi;
8. Azərbaycanda investisiya mühitinin fəaliyyətinin tənzimlənməsi mexanizminin səmərəliliyinin təminatı yolları

9. Regionlanda investisiya mühiti imkanlarından istifadə səviyyəsinin yüksəldilməsi problemlərinin öyrənilməsi

**Tədqiqatın elmi yeniliyi** – tədqiqat işinin elmi yeniliyini aşağıdakı formada xarakterizə olunur:

- Azərbaycanda investisiya qoyuluşları ilə infliasiya, dövlət borcu, ticarət balansı, siyasi sabitlik, gündəlik neft istehsalının həcmi, qanunun aliliyi, korrupsiyaya nəzarət və kölgə iqtisadiyyatı indeksləri arasında əlaqəni müəyyən etmək üçün çoxxətli reqressiya analizi həyata keçirilmişdir.
- Beynəlxalq təcrübənin kompleks təhlili nəticəsində ölkəmizdə investisiya təşviqi siyasətinin həyata keçirilməsində regionların müxtəlif dərəcəli bölgələrə ayrılması və regionla sənaye klasterlərinin yaradılması təklif edilmişdir.
- Azərbaycanda həyata keçirilən makroiqtisadi siyasətin investisiya mühitinin yaxşılaşdırılmasına təsirinin təhlili aparılmışdır.
- Azərbaycanda müəssisələr tərəfindən əsas kapitala yönəldilən investisiyaların həcminin paytaxt və regionlar arasındakı fərqlər təhlil edilmişdir.
- Vergi siyasətinin investisiya mühitinə birbaşa göstərdiyi təsirlərin müxtəlif metodlarla təhlili aparılmışdır.
- Azərbaycanda investisiya mühitinin fəaliyyətinin tənzimlənməsi mexanizminin səmərəliliyinin təminatı yolları öyrənilmişdir.
- Regionlarda investisiya mühiti imkanlarından istifadə səviyyəsinin yüksəldilməsi problemlərinin aradan qaldırılması istiqamətləri müəyyən edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işi çərçivəsində aparılan araşdırma bir çox təhlil və qiymətləndirmələr, elmi-nəzəri baxışlar eləcə də iqtisadi nəzəiyyələr və sintezləri özündə əks etdirir. Bu səbəbdən tədqiqatdan bakalavr, magistr, fəlsəfə doktoru dissertasiyalarının yazılmasında, elmi əsərlərin ərsəyə gətirilməsində, o cümlədən, elmi araşdırmaların həyata keçirilməsində istifadə edilə bilər. Tədqiqatın nəzəri əhəmiyyəti ilə yanaşı, onun praktiki əhəmiyyəti də mövcuddur. Tədqiqatda investisiya qoyuluşlarına təsir edən bir çox faktorların uzunmüddətli statistikası əsasında hazırlanan çoxxətli reqressiya analizi, riyazi-statistik modellər və statistik informasiyalar mövcuddur. Tədqiqatın əsas nəticələri regionlarda investisiya mühitinə

mənfi təsir göstərən amillərin aradan qaldırılmasında, investisiya qoyuluşlarına təsir edən vasitələrin və təşviq siyasətinin effektivliliyinin artırılmasında praktiki əhəmiyyətli ola bilər. Tədqiqat işində əldə edilmiş nəticələr əsasında ölkədə regionların inkişafı dövlət proqramlarında, investisiya qanunvericiliyinin təkmilləşdirilməsində, strateji islahat proqramlarının hazırlanmasında, investisiya və regional inkişaf yönümlü sahələrdə tədris-metodik vasitələrin tərtib edilməsində istifadə oluna bilər.

**Aprobasiya və tətbiq.** Dissertasiya işində təhlil edilmiş müddəalar və əldə edilmiş nəticələri Azərbaycanda və ölkə xaricində keçirilmiş Beynəlxalq Elmi Konfranslarda məruzə olunmuşdur. "Yeni Dövrdə Təhsil Və Tədqiqat Fəaliyyəti: Reallıqlar Və Çağırışlar", Türkiyənin Malatya şəhərində keçirilən İqtisadi İnkişaf və Sosial Araşdırmalar İnsitutunun (İKSAD, Türkiyə) "Biltek-VI. Elmin Cari İnkişafı, Texnologiya və Humanitar Elmlər" mövzusunda keçirdiyi Beynəlxalq müasir elmi tədqiqatlar konfransı və ddigər konfranslarda müzakirə edilmişdir. Tədqiqat işi ilə bağlı 5 elmi məqalə ölkə daxilində (onlardan 4-ü Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının məqalələrin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına daxildir), 1 elmi məqalə isə xaricdə dərc edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı** – Azərbyacan Respublikasının Elm və Təhsil Nazirliyi Gəncə Dövlət Universitetində yerinə yetirilmişdir.

**Dissertasiya işinin quruluşu və həcmi -** Tədqiqat işi cəmi 196 səhifədən, o cümlədən, 3 fəsildən, 9 yarımfəsildən, giriş, nəticə və təkliflərdən ibarətdir. Giriş 13940, Birinci fəsil 85698 ikinci fəsil 78420, üçüncü fəsil 57132, nəticə 8739, Ədəbiyyat 23874, 153 adda olmaqla dissertasiya işinin ümumi həcmi 243929 işarədən ibarətdir.

## DİSSERTASİYA İŞİNİN STRUKTURU

**I Fəsil. İqtisadiyyatda investisiya mühitinin formalaşmasının nəzəri-metodoloji və regional aspektləri**

1.1. İqtisadiyyatda investisiya mühitinin formalaşması və investisiya prosesinin nəzəri əsasları.

1.2. İnvestisiya mühitinin formalaşması amilləri və regional xüsusiyyətləri

1.3. Regionun investisiya mühitinə adekvat investisiya layihələrinin hazırlanması və qiymətləndirilməsinə metodiki yanaşma

**II Fəsil. Azərbaycan Respublikasının regionlarında investisiya mühitini şərtləndirən aspektlərin təhlili və qiymətləndirilməsi**

2.1. Regionların investisiya mühitinin inkişafında maliyyə aspektlərinin tədqiqi

2.2. Azərbaycanda investisiya mühitinə təsir göstərən amillərin deskriptiv və reqressiya analizi

2.3 Ölkədə investisiya potensialının formalaşmasının regional aspektlərinin təhlili və sahəvi bölgüdə investisiya mühiti imkanlarının qiymətləndirilməsi

**III Fəsil. Regionlarda əlverişli investisiya mühitinin formalaşdırılması istiqamətləri**

3.1 İnnovativ inkişaf siyasətinin regionların investisiya mühitinin səviyyəsinə təsirinin artırılması

3.2 Regionlarda investisiya mühitinin yaxşılaşdırılmasında büdcə-vergi amillərin təsiri yolları

3.3 Regionlarda əlverişli investisiya mühitinin formalaşdırılmasının xarici investisiyaların cəlb olunmasında rolu

**Nəticə**

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

**İxtisarlar**

**Əlavələr**

## DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

**1. İnvestisiya mühitinin formalaşmasına elmi-nəzəri baxışların və strukturlarının inkişaf xüsusiyyətlərinin komplektləşdirilməsi.**

İnvestisiya anlayışının mahiyyəti gələcəkdə gəlir və ya qazanc əldə etmək ümidilə pul və ya resursların qoyulması aktıdır. İnvestisiya sərvət artırmaq, gəlir əldə etmək və ya dəyər yaratmaq məqsədi ilə maliyyə aktivlərinə, fiziki aktivlərə və ya biznes müəssisələrinə vəsaitlərin yerləşdirilməsini nəzərdə tutur. İnvestisiya qərarları investisiyadan gözlənilən gəlir, cəlb olunan risk səviyyəsi, investisiyanın likvidliyi, investorun məqsəd və üstünlükləri daxil olmaqla bir sıra amillərə əsaslanır. Ümumi investisiya növlərinə səhmlər, istiqrazlar, daşınmaz əmlak, qarşılıqlı fondlar, birjada satılan fondlar və əmtəə, hedcinq fondları və özəl kapital kimi alternativ investisiyalar daxildir. İnvestisiya şəxsi maliyyə və sərvətlərin idarə edilməsinin, eləcə də biznes və iqtisadi inkişafın mühüm hissəsidir. O, innovasiyaların təşviqində, iş yerlərinin yaradılmasında və iqtisadi artımın sürətləndirilməsində mühüm rol oynayır və müasir cəmiyyətlərdə tərəqqinin və rifahın əsas sürücüsüdür. İnvestisiya səhmlərin alınması, daşınmaz əmlakın alınması, biznesin qurulması və ya təhsil bacarıqlarının əldə edilməsi kimi bir çox formada ola bilər. İnvestisiya məqsədi ümumiyyətlə uzunmüddətli maliyyə artımına nail olmaq, pensiya üçün qənaət etmək və ya uşağın təhsilini maliyyələş-dirmək kimi xüsusi maliyyə məqsədlərinə nail olmaqdır. İnvestisiya həmişə müəyyən dərəcədə risk ehtiva edir, çünki gələcək gəlirlər qeyri-müəyyəndir. İqtisadi şərait, bazar dalğalanmaları, texnologiya və ya istehlakçı seçimlərindəki dəyişikliklər kimi geniş spektrli amillərdən təsirlənə bilər. Bununla belə, potensial riskləri, mükafatları diqqətlə nəzərdən keçirməklə, müxtəlif aktiv sinifləri üzrə investisi-yaları diversifikasiya etməklə, investorlar riskləri minimuma endir-məyə və uzunmüddətli maliyyə məqsədlərinə nail olmağa kömək edə bilərlər. İnvestisiyalar maliyyənin vacib hissəsidir və investorların məlumatlı qərarlar qəbul etmək üçün istifadə edə biləcəyi bir çox model var.

**2. İnvestisiya mühiti potensialının makroiqtisadi aspektlərinin tədqiq edilməsi.**

İnvestisiya uzunmüddətli sərvət yaratmağın vacib aspektidir və investisiya mühitini başa düşmək investorların məlumatlı qərarlar

qəbul etmələri üçün çox vacibdir. İnvestisiya mühiti həm daxili, həm də xarici müxtəlif amillərin təsiri altında olan mürəkkəb və dinamik bir sistemdir. Bu amillər aktivlərin fəaliyyətinə, ümumi investisiya mühitinə təsir göstərir və onların başa düşülməsi investorlara görə investisiya məqsədlərinə nail olmaq üçün vacibdir. İqtisadi şərait investisiya mühitini formalaşdıran ən mühüm amillərdən biridir. İnflyasiya, faiz dərəcələri, ÜDM artımı və işsizlik dərəcələri kimi iqtisadi göstəricilər investorların davranışına və aktivlərin fəaliyyətinə təsir göstərə bilər. İnvestorlar investisiya qərarları ilə bağlı qeyri-müəyyənliyi və riski azaltmaq üçün çox vaxt siyasi mühitdə sabitlik və proqnozlaşdırıla bilənliyə can atırlar. Məsələn, hökumət yüksək vergilər və ya həddindən artıq qaydalar kimi biznes üçün əlverişsiz siyasətlər tətbiq etdikdə, bu, investisiyaların qarşısını ala və iqtisadi artıma zərər verə bilər. Texnoloji innovasiyalar yeni investisiya imkanları yaradır və mövcud sənayeləri sıradan çıxarır. Məsələn, e-ticarətin yüksəlişi pərakəndə sektorda yeni investisiya imkanları yaratdı, bərpa olunan enerjidə irəliləyişlər isə ənənəvi enerji sənayesini pozdu. Bu texnoloji dəyişiklikləri başa düşən və kapitallaşdıran investorlar əhəmiyyətli qazanc əldə edə bilər, uyğunlaşa bilməyənlər isə portfellərində dəyər itirmək riski ilə üzləşirlər.

**3. İnvestisiya mühiti ilə iqtisadi artım arasında əlaqənin əsaslandırılması.**

Ölkənin ümumi iqtisadi artımı onun yarada biləcəyi əmanətlərin (investisiyaların) səviyyəsindən əhəmiyyətli dərəcədə təsirlənir. İEOÖ nisbətən yoxsul vəziyyətlərinə görə tez-tez aşağı qənaət problemi ilə üzləşirlər. İnvestisiyalar üçün yalnız bu məhdud qənaətlərə güvənmək əhəmiyyətli iqtisadi artımı təmin etmək üçün yetərli olmaya bilər. Nəticədə, İEOÖ öz iqtisadi inkişafını sürətləndirmək üçün xarici investisiyalardan (xarici əmanətlərdən) yararlanmağa çalışırlar. Xarici investisiyalar İEOÖ-ə iki əsas formada cəlb olunur: xarici özəl kapital investisiyaları və xarici kreditlər. Xarici özəl kapital sərmayəsi xarici fiziki və ya hüquqi şəxslərin ölkə daxilindəki biznes və müəssisələrə birbaşa investisiyalarını nəzərdə tutur. Digər tərəfdən, xarici kredit müxtəlif inkişaf layihələrini və təşəbbüslərini maliyyələşdirmək üçün maliyyə kreditləri və beynəlxalq mənbələrdən borc götürməyə aiddir. İEOÖ xarici

sərmayələrə çıxış yolu ilə öz əmanətlərini əlavə edə, kritik layihələrin icrasını asanlaşdıra və iqtisadi artımı daha sürətli sürətləndirə bilərlər. Xarici kapitalın bu axını bu ölkələri qiymətli resurslar və təcrübə ilə təmin edir, uzunmüddətli perspektivdə inkişafı və rifahı təmin edir.

**4. Regionun investisiya mühitinə adekvat investisiya layihələrinin hazırlanması və qiymətləndirilməsinə metodiki yanaşma.**

İnvestisiya mühitində investisiyaların sağlam, maliyyə cəhətdən səmərəli olmasını təmin etmək üçün strukturlaşdırılmış metodologiyadan istifadə etməklə layihələr qiymətləndirilir və hazırlanır. İnvestisiya layihələrin hazırlanması və qiymətləndirilməsi metodologiyası potensial layihələrin müəyyən edilməsini, investisiya meyarları əsasında yoxlanılmasını, onların ətraflı qiymətləndirilməsini, layihənin təsdiqini, maliyyələşdirilməsini, plana uyğun həyata keçirilməsini, monitorinqini, nəzarətini və layihənin tamamlanmasından sonra bağlanması nəticəsində investisiyaların sağlam və maliyyə cəhətdən səmərəli olmasını təmin etməyə kömək edir. Bu metodologiya adətən aşağıdakı addımları əhatə edir:




**Sxem 1. İnvestisiya layihələrin hazırlanması və qiymətləndirilməsi metodologiyası**

***Mənbə**: "F.B. Əliyev. İnvestisiya Layihələrinin Qiymətləndirilməsi Metodologiyasının İnkişafı və Onun Müəssisələr Baxımından Səciyyələndirilməsi. 2007." məqaləsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Müasir bazar iqtisadiyyatı şəraitində müəssisələr üçün əsas tələb onun əlavə dəyər yarada bilmək qabiliyyətidir ki, bura bir çox faktor daxildir: işçilərin əmək haqqısı, kredit ödənişləri, mənfəət və səhmdarlar qarşısında götürülmüş minimum öhdəliklər aiddir. Əgər müəssisə belə bir qabiliyyətə malik deyilsə, bu zaman rəqabət qabiliyyətini itirərək bazardan sıxışdırılmağa məhkumdur. Bəzi üsullar mövcuddur ki, bunlar

səmərəlilik meyarına əsaslanır. Həmin üsullara sərfəli üsullar daxil edilir:

- Xərc metodu icra ediləcək layihə ilə bağlı ümumi xərclərin təhlilinə əsaslanır. Bu metod alternativ layihələr ilə müqayisədə bəlli bir layihənin il ərzində iqtisadi effektivliyini qiymətləndirməyə şərait yaradır.
- Gəlirlilik və ya effektivlik metodları investisiyaların əldə edilən nəticələri, yəni qazanılan mənfəətin analizinə əsaslanır (əlavə, məhsullar, balans hesabatı, illik iqtisadi təsir).

Zaman prosesini nəzərə alan investisiya layihələrini qiymətləndirilməsi zamanı bu üsullar iki əsas qrupa bölünür ki, bunlara: statik və dinamik metodlar daxildir. Statik metod mühasibat hesablamaları zamanı istifadə edilən göstəricilərə əsasən hesablamalar apara bilir: məsələn, azaldılmış xərclər, səmərəlilik nisbəti, iqtisadi illik effekt, geri ödəmə müddəti və s. Dinamik metodlar isə (annuitet, yığılmış dəyər, diskontlaşdırma) layihənin geri qayıtma müddətinin daxili dərəcəsinə və xalis cari dəyərə, yəni diskont edilən qiymətləndirmələrə əsaslanan parametrlərdən istifadə edir. Həmçinin İnvestisiya layihələrinin qiymətləndirilməsi üsullarında ölçmələrdə istifadə olunan meyarların sayı baxımından da fərqləndirilirlər. Bu mövqedən nəzər saldıqda qiymətləndirmə modelləri 2 yerə: normativ və multifaktorial bölünür. Metodlarda çox meyarlı və tək üsullarla seçilir. İlkin olaraq çox meyarlı optimallıq metoduna nəzər salsaq bu metod vasitəsi ilə layihənin rentabelliliyinə əlavə olaraq fərqli bir neçə göstəricilərdə mövcuddur: kapital artımının sabitliyi, risk, təhlükəsizlik, geri ödəmə müddəti, ekoloji və sosial səmərəlilik. Normativ modellərin istifadəsi zamanı qiymətləndirmə yalnız maliyyə-iqtisadi göstəricilərinə əsasən aparıldığına görə çoxkriteriyalı metoddan istifadə etmək lazımdır[1].

**5. Azərbaycana xarici investisiyaların cəlb olunmasının mövcud vəziyyətinin kompleks təhlil edilməsi.**

Artıq bir neçə ildir ki, yerli islahatlar arasında prioritet kimi dövlət xidmətlərinin rəqəmsallaşdırılması özünü göstərir. “ASAN” və “Elektron vergi” platformalarının yaradıldıqdan sonrada hər il yenilənməsi istfadəçilər üçün əlverişliliyi sayəsində ardıcıl olaraq yüksək qiymətləndirilmişdir. Bu platformalar çevikliyi artıraraq

[1] Xamitova, N.A. İnvestisiya Layihələrinin Menecmenti // - Menecmenti tikintinin iqtisadiyyatı və menecment elmi-praktiki jurnal, - 2018. № 1, - 159 s.

bürokratiyanı effektiv şəkildə azaldır, prosedurları sürətləndirir və şəffaflığı artırır. Xarici bizneslər üçün Elektron gömrük platforması istiqamətində həyata keçirilən islahatlar gözlənilən idi. Bu səbəbdən də, iki il ardıcıl olaraq təsirli islahatlar arasında üçüncü yerdə qərarlaşmışdır. Bununla belə, cari ildə gömrüklə bağlı prosedurlar e-platforma ilə bağlı texniki məsələlərin həll edilməsində gecikmələr yaranıb və əməliyyat səviyyəsində qərarların qəbulu prosesində vaxt aparan müxtəlif ləngimələrin olması halları baş vermişdir[2].

2018-2019-cu illərdə hökumət daşınmaz əmlak hüquqlarının qeydiyyatı, kreditlər və minoritar səhmdarların müdafiəsi ilə bağlı müxtəlif islahatlar həyata keçirmişdir. Keçirilən bu islahatların bariz nümunəsi kimi Azərbaycanın Kredit əldə etmək indiqatoru üzrə maksimum nəticə əldə etməsinə gətirib çıxarmışdır. Ancaq belə irəliləyişləri digər sahələrdə də əldə etmək vacibdir. Qrafikə nəzər salsaq görərik ki, Minoritar investorların qorunması və Əmlakın qeydiyyatı kimi indiqatorlar üzrə region ölkələrinin ortalamasından aşağı nəticə əldə etmişik. Bu baxımdan həmin sahələrdə həyata keçirilən islahatların effektivliyini nəzərdən keçirilməlidir.




**Qrafik 1. Azərbaycanın üzrə "Doing business" hesabatını təşkil edən indiqatorlar üzrə göstəriciləri**

***Mənbə:*** *www.doingbusiness.org platformasından əldə edilən məlumatlara əsasən müəllif tərəfindən hazırlanmışdır.*

---

[2] Avropa İttifaqı Biznes Mühiti Hesabatı. Azərbaycan 2020 / – 2020. - 80 s.

Qeyri-neft sektorunda davamlılığın artırılması 2016-cı ildən Azərbaycan üçün ardıcıl prioritet olub. Azərbaycan 2018-ci ildən etibarən “Doing Business” reytinqində əhəmiyyətli dərəcədə irəliləyiş əldə edib, 57-ci yerdən 25-ci yerə yüksəlib, lakin sonra 2020-ci ildə 34-cü yerə düşüb. Ancaq 2020-ci ildə əvvəlki ilə nisbətən geriləməyimizə baxmayaraq bu göstərici dünya ölkələri arasında kifayət qədər yüksək göstərici sayılır. Digər tərəfdən, Dünya İqtisadi Forumunun Qlobal Rəqabət Qabiliyyətlilik Hesabatı Azərbaycanın mövqeyinin 2016-cı ildən mülayim şəkildə aşağı düşdüyünü görə bilərik. Burada əsasən 2013-2016-cı illər arasında yüksək göstəricilər əldə edilmişdir. Dünya ölkələri arasında 2015-ci ildə rəqabətqa-biliyyətinə görə 38-ci yerdə qərarlaşmağımız böyük nəticədir. 2019-cu ildə qlobal səviyyədə COVİD-19 pandemiyasının yayılmasına baxmayaraq müsbət nəticə əldə edilmiş 69-cu pillədən 58-ə yüksəlmişdir. Ümumilikdə Dünya Bankının hər iki hesabatında investisiya mühitinə təsir edən müxtəlif indiqatorların qiymətləndirilməsi səviyyəsindən asılı olaraq bu indekslər hesablanır. Bunlara misal olaraq biz aşağıdakıları göstərə bilərik:




**Qrafik 2. Qlobal rəqabətqabiliyyətlik və biznesə başlama indekslərinin dinamikası.**

***Mənbə:*** *“Doing Business” –in hesabatından əldə edilən məlumatlara əsasən müəllif tərəfindən hazırlanmışdır.*

Apardığımız araşdırmalar, həm yerli həm də beynəlxalq ədəbiyyatlarda, yazılan müxtəlif tədqiqatlardan gəldiyimiz nəticəyə əsasən investisiya mühitinin yaxşılaşması nəticəsində ölkədə kapital qoyuluşlarının artmasına təkan verdməsinin birbaşa əlaqəli olduğu ortaya çıxmışdır. Ədəbiyyat araşdırması zamanı əsasən SPSS proqramı vasitəsi ilə də ortaya çıxdı ki, həqiqətən də, 11 iqtisadi-siyasi

göstəricilər ilə ölkəyə investisiya qoyuluşu (həm daxili, həm də xarici) arasında müsbət bir əlaqə vardır. Bu 11 iqtisadi-siyasi göstəricilər yəni bizim müstəqil dəyişənlərimiz ilə asılı dəyişənlərimiz arasında qarşılıqlı əlaqənin olması yuxarıda göstərilən bir çox riyazi-statistik əmsallar və dəyərlər əsasında özünü göstərmişdir.

**Cədvəl 1. Reqressiya modeli: simvollar və onların mənaları:**

| | |
|---|---|
| $Y_1$ ➔ Kapital qoyuluşu, milyard ABŞ dolları<br>$Y_2$ ➔ Birbaşa xarici investisiyalar (BXİ)<br>$Y_3$ ➔ BXİ-nin ÜDM-da faizi<br>$Y_4$ ➔ Daxili investisiyalar<br>a ➔ Dəyişənlərin kəsişməsi<br>b ➔ Anakütlə meyl əmsalı (Reqressiya əmsalı)<br>**U** ➔ Xəta payı | **$X_1$ ➔ İqtisadi artım**<br>**$X_2$ ➔ ÜDM**<br>**$X_3$ ➔ İnflyasiya**<br>**$X_4$ ➔ İşsizlik**<br>**$X_5$ ➔ Ticarət balansı**<br>**$X_6$ ➔ Hökumət borcu**<br>**$X_7$ ➔ Qanunun aliliyi**<br>**$X_8$ ➔ Korrupsiyaya Nəzarət**<br>**$X_9$ ➔ Siyasi Sabitlik**<br>**$X_{10}$ ➔ Kölgə İqtisadiyyatı**<br>**$X_{11}$ ➔ Gündəlik Neft İstehsalı** |

***Mənbə:*** *Müəllif tərəfindən hazırlanmışdır.*

**Cədvəl 2. Tədqiqatın dəyişənləri:**

| **Müstəqil Dəyişənlər** | **Asılı dəyişənlər** |
|---|---|
| İqtisadi artım<br>ÜDM<br>İnflyasiya<br>İşsizlik<br>Ticarət balansı<br>Hökumət borcu<br>Qanunun aliliyi<br>Korrupsiyaya Nəzarət<br>Siyasi Sabitlik<br>Kölgə İqtisadiyyatı<br>Gündəlik Neft İstehsalı | Kapital qoyuluşu<br>Birbaşa xarici investisiyalar (BXİ)<br>Birbaşa xarici investisiyaların ÜDM-də faizi<br>Daxili investisiyalar |

***Mənbə:*** *Müəllif tərəfindən hazırlanmışdır.*

**6. Regionlarda investisiya mühiti imkanlarının qiymətləndirilməsi.** İnvestisiya mühitinin regional inkişafa təsiri çox vacibdir. Əlverişli investisiya mühiti biznesləri, investorları və sahibkarları cəlb edir. Nəticədə yeni iş yerlərinin yaradılması, iqtisadi artım və region əhalisi üçün həyat səviyyəsinin yaxşılaşmasına şərait

yaradır. Bu fəsildə investisiya mühitinin regional inkişafda rolunu, o cümlədən əlverişli investisiya iqliminə töhfə verən amilləri və onun faydalarını araşdırmağa çalışmışıq. Əlverişli investisiya mühiti investisiya və biznesin inkişafı üçün əlverişli hüquqi, iqtisadi və tənzimləyici şərait yaradır. İnvestorlar investisiyalarının təhlükəsizliyinə və gəlirliliyinə inanmalıdırlar çünki biznesin əməliyyat səmərəliliyi və gəlirliliyinə ehtiyacı var. Bundan əlavə, regionun özünəməxsus iqtisadi siyasəti və şərtləridə investisiya mühitinə müsbət və mənfi təsir göstərə bilər. Beləliklə, şəffaflığı, etimadı və sabitliyi təşviq edən investisiya mühiti kapitalın cəlb edilməsi və iqtisadi artımın dəstəklənməsi üçün həyati əhəmiyyət kəsb edir. İnvestisiya üçün stimullar təmin edən regionlar investorları cəlb etmək və biznesin böyüməsini stimullaşdırmaq üçün daha böyük imkanlara malikdir. Aşağı vergi dərəcələri, sadələşdirilmiş tənzimləmə prosedurları və investisiya subsidiyaları kimi tədbirlər regionun sahibkarlar və investorlar üçün cəlbediciliyini artırır. Bundan əlavə, güclü və şaxələndirilmiş iqtisadiyyatı, ixtisaslı işçi qüvvəsi və müasir infrastrukturu ilə fərqlənən regionlar daha da əlverişli investisiya mühitinə sahib ola bilər. Bundan əlavə, investisiya mühitinin formalaşmasında regionun sosial və mədəni mühiti də rol oynayır. Güclü sosial birlik və minimal korrupsiya ilə səciyyələnən cəmiyyət bizneslər, investorlar və hökumət arasında qarşılıqlı əməkdaşlığı və etimadı həe zaman inkişaf etdirir. Bu etimad nəticəsində sabit investisiya mühiti formalaşır ki, bu da öz növbəsində həmin regionda iqtisadi artımı təşviq edir.

**7. İnvestisiya mühiti və onun investisiya potensialından istifadəyə təsiri mexanizmlərinin artırılması istiqamətlərinin müəyyənləşdirilməsi.** Son illərdə ölkədə investisiya fəallığının və qeyri-neft ixracının artırılmasına diqqət yetirilərək investisiya əsaslı inkişaf modelinin tətbiq edilməsinin şahidi oluruq. İnvestisiya mühitinin gücləndirilməsi, fəaliyyətinin stimullaşdırılması və qeyri-neft ixracının təşviqi istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirilmişdir. Aparılan tədqiqatlardan ortaya çıxan nəticələrə baxdıqda hər bir ölkə üçün investisiya mühitinin inkişafı onun investisiya potensialına birbaşa təsir etdiyini görürük. Ümumilikdə investisiya mühiti üçün əsas istiqamətlər kimi iqtisadi, siyasi və sosial amillərin

olduğunun şahidi oluruq. Hər bir istiqamət üzrə alt kateqoriyalara nəzər saldıqda hər biri ayrı-ayrılıqda müsbət təsir edir. Ancaq bu parametrlərin hər biri arsında qarşılıqlı əlaqənin olmaması mənasına gəlməməlidir. Çünki iqtisadi sistem dövlətin ümumi siyasəti və ölkənin sosial vəziyyəti arasında zəncirvari əlaqə mövcuddur və bütün inkişaf göstəriciləri bu üç komponentin təzahüründə ortaya çıxmaqdadır. İnvestisiya mühitinin formalaşdırılması baxımından bir çox işlək mexanizmlər mövcuddur. Tədqiqatın aparıldığı zaman ortaya çıxan çatışmazlıqların aradan qaldırılması istiqamətində aşağıdakı mexanizmin həyata keçirilməsi nəticəsində ümumi investisiya mühitinin inkişafı ilə nəticələnməsi gözlənilir.




**Sxem 2. İnvestisiya mühitinin formalaşması mexanizmləri**

***Mənbə:*** *"E. Məmmədova. İnvestisiya Mühitinin Formalaşdırılması Proseslərinin və Mexanizmlərinin Müasir Aspektləri. 2019" məqaləsindən əldə edilən məlumatlara əsasən müəllif tərəfindən hazırlanmışdır.*

**8. Regionlarda investisiya mühitinin yaxşılaşdırılmasında büdcə-vergi mexanizminin tədbiqinin əsas istiqamətləri.** Vergitutmanın funksiyaları dövlətin vergi siyasətini özündə əhatə edir ümumi iqtisadiyyat daxilində müxtəlif məqsədlərə xidmət edir. Vergilərin tənzimləmə funksiyası müxtəlif vergi dərəcələri, vergi

tətilləri, vergi bazaları və güzəştlər vasitəsi ilə konkret sektorlarda, regionlarda investisiyaları stimullaşdırmaq və ya məhdudlaşdırmaq kimi müxtəlif məqsədləri həyata keçirilir. Birbaşa vergilər, dolayı vergilərlə müqayisədə investisiya fəaliyyətinə daha çox təsir göstərir və onların tənzimləməsi prosesində daha effektiv olur. Ümumi vergi güzəştlərinin effektivliyi müxtəlif sahələrdə obyektiv şəkildə dəyişir. Buna görə də, vergi tənzimlənməsi ilə məşğul olarkən, iqtisadi sistem daxilində həmin hədəfin rolunu, təsirini və ya prioritetini qiymətləndirmək əsasında hədəfi seçmək vacibdir. Bu tip tənzimləmənin səmərəliliyinin qiymətləndirilməsinə ikili perspektivdən yanaşmaq mümkündür. Şəkildə göstərilən məqsədlərə nail olmağa yönəlmiş tədbirlərə misal olaraq: xüsusi iqtisadi zonaların yaradılması, vergi dərəcələrinin ərazi və sahəyə görə differensiallaşdırılması kimi selektiv güzəştləri göstərə bilərik.




**Sxem 3. Vergi tənzimlənməsinin istiqamətləri.**

***Mənbə:*** *"Ə.Məmmədov və İ.Seyfullayev. Vergi və investisiya. 2013." kitabından əldə edilən məlumatlara əsasən müəllif tərəfindən hazırlanmışdır.*

**9. Azərbaycan Respublikasında investisiya mühitinin fəaliyyətinin tənzimlənməsi və imkanlarından istifadə səviyyəsinin yüksəldilməsi istiqamətləri.** Son dövrlərdə milli iqtisadiyyatın investisiya potensialının və cəlbediciliyinin artırılması baxımından bir çox uğurlu islahatlar həyata keçililmişdir. İqtisadiyyatın artım tempi və inkişafına görə, biznes mühiti və ümumi iqtisadi inkişafla əlaqəli dünyanın məşhur təşkilatları tərəfindən hazırlanan hesabatlarda ölkəmizin mövqeləri daha da yaxşılaşmaqdadır. İnvestisiyaların effektiv şəkildə inkişafı üçün bir çox təşviq mexanizmlərinin işə düşməsi diqqətə layiq əhəmiyyət daşıyır. Buna görədir ki, Türkiyə, Böyük Britaniya, ABŞ, Almaniya, BƏƏ, Rusiya və Fransa kimi dünyanın güclü ölkələri tərəfindən Azərbaycana hər il müxtəlif səviyyədə sərmayə qoyulmaqdadır. Respublikada sahibkarlıq fəaliyyətinin sadələşdirilməsi və investisiya iqliminin

yaxşılaşdırılması istiqamətində lisenziya verilməsi tələb edilən fəaliyyət sahələri 59-dan 37-ə salınıb. KOB-lar üçün torpaq, əmlak və mənfəət vergiləri 7 il müddətinə alınmır. Kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən sahibkarlar torpaq vergisindən başqa digər vergilərdən azad edilmişdir. Müasir dünyanın tələbatı olan rəqəmsal transformaiyaların dəstəyi ilə xarici sərmayədarlar beznesə başlanması prosesi avtomatlaşdırılaraq xeyli sadələşdirilmişdir. Həmçinin sənaye parklar və məhəlləri kimi güzəştli bölgələrdə fəaliyyət göstərən rezidentlərin idxal rüsumları, ƏDV, əmlak və gəlir vergisindən 10 il müddətinə azadedilmə kimi və s. güzəştlər nəzərdə tutulmuşdur. Hökumət tərəfindən investisiyaların cəlbedilməsi hər zaman prioritet istiqamət kimi qalmışdır. Bu səbəbdəndir ki, Strateji Yol Xəritəsində, Gələcəy baxış Konsepsiyalarının hər birində ölkənin investisiya iqliminin yaxşılaşdırılması məsələləri hər zaman aktualdır və yeniliklərin tətbiq edilməsi üçün strategiyalar hazırlanmışdır[3].

Dünya Bankının məlumatlarına əsasən aşağıda göstərilən cədvəldə investisiya mühitinin inkişafı nəticəsində firmalar və şirkətlərin inkişafına hökumətlər tərəfindən göstərilən üç əsas təsir vasitələri göstərilmişdir:




**Sxem 4. Hökumətlər tərəfindən investisiya mühitinin inkişafı nəticəsində firmalar və şirkətlərin inkişafına göstərilən təsir vasitələri**

***Mənbə:*** *"ATƏT. Faydalı Biznes və investisiya mühitinə dair vəsait. 2006" hesabatından əldə edilən məlumatlara əsasən müəllif tərəfindən hazırlanmışdır.*

---

[3] Azərbaycan Respublikası Prezidentinin "Lisenziyalaşdırma sahəsində bəzi tədbirlər haqqında" Fərmanı // 21 dekabr 2015-ci ildə qəbul edilmişdir. - Bakı: - Fərman, - 2015

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Çağdaş dünyada inkişaf etmiş cəmiyyətlərin təcrübəsi göstərir ki, hər bir ölkənin inkişafını təmin edə bilməsi üçün bir tərəfli deyil, bütün ölkə üzrə, yəni regionlar daxil inkişafı lazımdır. Onun dayanıqlılığı və davamlılığının qorunub saxlanılması üçün regionlar arası inkişaf bərabərsizliklər minimuma enməlidir. 20-ci əsirdən başlayaraq İEÖ-in hər biri öz daxili regionlarında geridə qalmış və az inkişaf etmiş bölgələrinin təşviq etmək üçün bir çox addımlar atmışdır. Nəticədə əldə etdiymiz məlumatlar sübut edir ki, bu addımlar müsbət effekt vermişdir. Azərbaycanda investisiya potensialı, cəlbediciliyi və mühiti kimi anlayışlar son onillikdə daha aktiv işlənməyə başlanmışdır. Dövlət tərəfində qəbul edilən proqramların əsasınıda regionların inkişafı və ümumi investisiya qoyuluşlarının artırılması nəzərdə tutulur. Ölkə başçısı görüşlərinin əksəriyyətində regionlarda investisiyaların artırılmasını dövlət qrumları qarşısında başlıca vəzifə kimi qoyur. Bu istiqamət bizə dövlətin ciddi şəkildə investisiya iqliminin yaxşılaşdırılmasında marağınıın olduğunu göstərməkdədir. Qəbul edilən qanunlarda, Sərəncam və Fərmanlar ümumilikdə qanunvericilik sahəsində edilən dəyişikliklərin əsas hədəfi beynəlxalq səviyyədə sərmayənin çəkilməsinə uyğun mühitin yaranmasıdır.

1) İnvestisiyaların təşviqi sahəsində fəaliyyət göstərən qurumların fəaliyyətinin effektiv və nəticə yönümlü qurulması baxımından onların gördükləri işlərin qiymətləndirməsi indikatorları hazırlanıb tətbiq edilməlidir. Həmin qrumların vəsaiti hesabına reallaşdırılan layihələr üzrə uzun dövr üçün hesabatlılıq sistemi qurulmalıdır. Çünki verilən güzəştli resursların ölkənin ayrı-ayrı regionlarının iqtisadiyyatına faydasını qiymətləndirə bilmək mümkün olsun.

2) Regional Hab-ların yaradılması: Səhiyyə, Turizm, Təhsil və s. Dünya təcrübəsində Slikon vadisi tipli örnəklər mövcuddur ki, bu kimi təcrübələrin ölkəmizdə tətbiqi yuxarıda qeyd edilən sahələr üzrə regionların inkişafına xüsusi təkan verə bilər.

3) Regionlarda fəaliyyət göstərən müəssisələrdə vergi güzəştlərinin izlənilməsi, dünya təcrübəsi göstərir ki, dövlət tərəfindən verilən güzəştlərin bu təşviqlərdən faydalanan müəssisələr tərəfindən hansı formada istifadə edilməsini izləyən regional nəzarət

mexanizminin formalaşdırılımasına ehtiyac vardır. Belə ki, məqsəd investisiyaları stimullaşdırmaqdırsa, bu zaman həmin güzəştlərin istifadə edilməsinə öhdəliklər qoyaraq onları daha çox investisiya qoymaq və ya müəssisənin bazasını yeniləmək kimi istiqamətlərə yönəldilməsi vacibdir.

4) Azərbaycanda regionlarda klasterlərin yaradılması bölgələrimizin inkişafı baxımından zəruri hesab edilir. Bu klasterlərin yaradılması üçün düzgün strategiya işlənib hazırlanmalıdır. Əsasən regional və sosial-iqtisadi keçmişimizdə oxşarlığı olan Ukrayna, Rusiya və Türkiyənin regional klasterlər baxımından uğurlu nümunələri mövcuddur. Düşünülür ki, Respublikada aqrar-sənaye sektorunun inkişafı həmçinin bu sahədə dəyər zəncirinin formalaşması baxımından pambıqçılıq sahəsində yaradılacaq klasterlər ölkəmizdə regionların inkişafına böyük dəstək göstərə bilər.

5) Beynəlxalq təşkilatlara üzvlük və inteqrasiyaların əldə edilməsi sahəsində görülən işlər genişləndirilməlidir. İnvestorların ən çox fikir verdiyi təşkilatlardan biri də, ÜTT-dir. Bu təşkilata üzvlüyün sürətləndirilməsi və götürülmüş öhdəliklərin icrası nəticəsin də, Respublikaya investisiya qoyuluşlarında ciddi artım olması gözlənilir. Araşdırma zamanıda qarşılaşdığımız faktlardan biridir ki, xarici investorların Azərbaycanın bu təşkilata üzv olması prosesini izləyirlər. Çünki məsələ burada təşkilatın adında deyil, onun ölkələr qarşısında qoyduğu öhdəliklərin icrası nəticəsində ölkəmizin, xüsusilə də onun ayrı-ayrı regionlarının biznes və investisiya mühitində baş verən müsbət dəyişikliklərdir.

6) “Azərbaycan İnvestisiya Şirkəti” ASC-nin “Sahibkarlığın İnkişafı Fondu”nun birləşməsi ilə yaranan “Biznesin İnkişafı Fondu”nun imkanlarından daha da səmərəli istifadə olunması zəruridir. Regionlarda investisiya qoyulması üçün onun maliyyələşdirilməsi məsələləri daha dayanıqlı formada təmin edilməlidir. Belə ki, ayrılan uzunmüddətli kreditlərin həcminin artırılmasına ehtiyac vardır.

7) Azərbaycanda investisiya mühitinin yaxşılaşdırılmasına təsir edən amillərin müəyyənləşdirilməsi məqsədilə dörd müstəqil reqressiya təhlili aparılmışdır. Reqressiya təhlili sayəsində ayrı-ayrılıqda sərbəst dəyişənlərin asılı dəyişənlərə təsir etməsinin arasında

olan əlaqənin doğru olub olmadığının şahidi olduq. Qeyd edilən 4 reqressiya modelinin əsas məqsədi ölkənin investisiya mühitinə təsir edən müstəqil dəyişənlərin müəyyən edilməsi olmuşdur. Bütün reqressiya modellərinin ölkənin investisiya mühitini müəyyən etməkdə etibarlı vasitə olduqları əldə edilən nəticələr vasitəsilə dəstəklənmişdir. Modellər vasitəsilə əldə edilən nəticələrə əsasən qeyd etmək olar ki, iqtisadi inkişaf, ÜDM, ticarət balansı, dövlət borcu, qanunun aliliyi, kölgə iqtisadiyyatı, işsizlik, siyasi sabitlik və gündəlik neft hasilatı ölkənin iqtisadi mühitinin müxtəlif göstəricilərinə statistik cəhətdən əhəmiyyətli dərəcədə təsir göstərirlər.

8) Korrupsiyaya nəzarət və Qanunun aliliyi kimi indekslər ilə investisiya qoyuluşları arasında statistik əlaqənin olduğunu görürük. Bu analizə əsasən deyə bilərik ki, ölkədə korrupsiyaya nəzarət artdıqda, qanunun aliliyi qorunduqda, nəticə etibarilə, bütün bunlar investisiya mühitinə birbaşa müsbət təsir göstərir. Dünyada yüksək investisiya qoyuluşları baş verən hər bir ölkədə bu indeksin səviyyəsi hər zaman yüksək olmuşdur. Bu səbəbdən də Azərbaycanda korrupsiya hallarına qarşı aparılan mübarizə davam etdirilməli, ölkənin istər ali, istərsə də regional məhkəmələrində qanunun aliliyi prinsipinə daxil olan hər bir komponenet qorunmalıdır.

9) Yaxın günlərdə qəbul edilmiş “Rəqabət Məcəlləsi”nin tələblərinə uyğun olaraq, müəssisələr arasında sağlam rəqabətin təmin olunması istər bütövlükdə ölkədə, istərsə də onun ayrı-ayrı bölgələrində əlverişli investisiya mühitinin formalaşdırılmasından asılı olacaqdır. Bu istiqamətdə görüləcək işlərin uğuru isə öz növbəsində xeyli dərəcədə dövlət sifarişli investisiya layihələrinin qazanılması ilə bağlı müxtəlif müəssisə və təşkilatlar arasında hökumətin apardığı tenderlərdə müəyyən edilən qaliblərin ədalətli, əsaslandırılmış və obyektiv seçiminə bağlıdır. Odur ki, ölkədə iqtisadi inkişafı stimullaşdıran rəqabətədavamlı yerli müəssisələrin formalaşması üçün əlverişli investisiya mühitinin bərqərar edilməsi qaçılmazdır. Bu isə bölgələrdə real tender qaliblərinin müəyyən olunmasında obyektivliyin təmin edilməsindən keçir.

10) Siyasi stabillik investisiya mühitinin qorunması və inkişafı baxımından hər bir investorun qərarverməsinə təsir edən ən əhəmiyyətli faktorlardan biridir. İşğaldan azad edilən ərazilərdə həyata

keçirilən böyük investisiya layihələrinin davamlılığı baxımından və həmin bölgələrdə aparılacaq uzunmüddətli bərpa-quruculuq işlərini nəzərə alaraq sülh müqaviləsinin bağlanması nəticəsində müharibə şəraitinin bitməsi siyasi stabillik baxımından ölkəmizin investisiya mühitinə çox böyük fayda verəcəkdir.

11) Bakı və regionlar arasında əsas kapitala yönəldilən investisiyalar arasında kəskin fərqlər olduğunu görürük. Bu baxımdan regionlarda, xüsusilə də işğaldan azad edilən bölgələrdə xüsusi vergi rejimi tətbiq etməklə vergi məcəlləsinin 109-cu maddəsində Gəlirdən çıxılmayan xərclər hissəsində göstərilən əsas vəsaitlərin alınması və kapital xarakterli xərclər amortizasiya ayrılmaları yolu ilə deyil, elə gəlirdən birbaşa çıxılması kimi dəyişiklik edilərsə, regionlarda ümumi investisiya mühitinə müsbət təsir edəcəkdir.

**Dissertasiya işinin əsas müddəaları aşağıdakı elmi məqalələrdə öz əksini tapmışdır:**

1. İnvestisiya qoyuluşlarında sosial məsuliyyətli investisiyaların əsas istiqamətləri // Bakı Biznes Universiteti. Audit jurnalı. Bakı, 2022.

2. Beynəlxalq Kapital Axınları // SOCAR. Azərbaycan Neft Təsərrüfatı Jurnalı. Bakı, 2023.

3. Влияние Налоговой Политики На Приток Прямых Иностранных Инвестиций: Обзор Литературы // Научно-исследовательский экономический институт Министерства экономики Республики Беларусь. Экономический бюллетень. Минск, 2023.

4. Relationship Between Foreign Direct Investment and Income Inequality / Biltek-VI International Symposium On Current Developments in Science, Technology And Social Science. Malatya, september 16-18, 2022

5. Təşviq konsepsiyası və beynəlxalq təşviq siyasətləri // Azərbaycan Dövlət Texnologiya Universiteti. İnnovasiyalı və İqtisadiyyat və Menecment. Gəncə 2022

6. Birbaşa xarici investisiyaların inkişaf etməkdə olan ölkələrə təsiri // Bakı Avrasiya Universiteti. Sivilizasiya jurnalı. Bakı, 2022

7. Birbaşa Xarici İnvestisiya Və Gəlir Bərabərsizliyi Arasında Əlaqə / Bakı Avrasiya Universitetində Müstəqil Azərbaycan: gerçəklik işığında Respublika konfransı, Bakı, 24-26 may, 2022

8. İnvestisiya qoyuluşlarında təşviq siyasətinin rolu / “Yeni dövrdə təhsil və tədqiqat fəaliyyəti: Reallıqlar və Çağırışlar Konfransı. Beynəlxalq Elmi Konfrans. Mingəçevir, 16-17 dekabr, 2022

9. Covıd-19-un İnvestisiya Davranışlarına Təsiri // Azərbaycan Dövlət Neft və Sənaye Universiteti. Azərbaycan Ali Texniki Məktəblərinin Xəbərləri. Bakı, 2023.

10. Azərbaycan Respublikasında İnvestisiya Mühitinin Formalaşmasında Regional Aspektlərin Təhlili // Bakı Biznes Universiteti. Audit jurnalı. Bakı, 2024.

Dissertasiyanın müdafiəsi “30” oktyabr 2024-cü il tarixdə saat 16:00-da Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən ED 2.10 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan:  AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küç., 6

Dissertasiya ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət İqtisad Universitetinin www.unec.edu.az rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat “28” sentyabr 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 18.09.2024
Kağızın formatı: 60x84 1/16.
Həcmi 1 ç.v. (39990 işarə). Tiraj 100.

*“AA – Poliqraf” istehsalat-kommersiya birliyində*
*hazır diopozitivlərdən istifadə olunmaqla çap edilmişdir.*
*Əlaqə üçün:* capevi@internet.ru */ (+99455) 201-2809*